Co-funded by the European Union
EUROPEAN UNION
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
Co-funded and implemented by the Council of Europe

**Aİ/AŞ-nin Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq III proqramı (PGG III)**

**Layihə: "Azərbaycanda mediasiyanın təşviqi"**

# Hesabat
# "Azərbaycanda mediasiya üzrə təlim xidməti göstərənlərin fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirilməsi və mediatorlar üçün ilkin təlim proqramının minimum standartlarına dair tövsiyələr"

**CEPEJ ekspertləri Nina Betetto və Mariya Oliveyra tərəfindən hazırlanmışdır**

**Dekabr 2023-cü il**

Bu hesabat Avropa İttifaqı və Avropa Şurası tərəfindən birgə maliyyələşdirilən layihənin bir hissəsi kimi hazırlanıb. Burada ifadə olunan fikirlər heç bir halda tərəflərdən hər hansı birinin rəsmi rəyini əks etdirən fikirlər kimi qəbul edilməməlidir.

# Mündəricat


**I. Giriş** ... 2

**II. Mediasiya üzrə təlim xidməti göstərənlərin fəaliyyətinin tənzimlənməsi** ... 3

1. Mediasiyanın tənzimlənməsinə yanaşmalar ... 3

2. Mediasiya təlimi sxemlərinin tənzimlənməsi – müqayisəli baxış ... 5

3. Azərbaycanda mediasiya üzrə təlim xidməti göstərənlərin fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirilməsi ... 7

a. Ümumi məlumat ... 7

b. Mediasiya üzrə təlim xidməti göstərənlər və təlim kursları akkreditə olunmalıdır ... 8

c. Keyfiyyətin idarə olunması ... 9

d. Müstəqil monitorinq tədbirləri ... 10

e. Akkreditasiyanın ləğvi ... 10

4. Tövsiyələr ... 11

**III. Azərbaycanda mediatorlar üçün ilkin təlim proqramının minimum standartları** ... 11

1. Giriş ... 11

2. Mediasiya üzrə baza səviyyəli təlim kursunun məzmunu ... 14

3. Bacarıqlar modeli ... 16

4. Təlim kursunun məzmunu və mediatorların bacarıqları (təklif) ... 18

5. Kursun müddəti ... 20

6. Tədris prosesinə münasibətdə ümumi yanaşma ... 20

7. İştirakçılar üçün materiallar ... 20

8. Rol oyunlarının təşkili ... 21

9. Əks əlaqə (rəylərin təqdim edilməsi) ... 21

10. Fəaliyyətin qiymətləndirilməsi və akkreditasiya ... 22

11. Modul nümunəsi ... 22

12. Tövsiyələr ... 23

13. Yol xəritəsi ... 23

# I. Giriş

Mübahisələrin həllinin alternativ üsulu kimi mediasiya son illər Avropada inkişaf edib və möhkəmlənib. O həm məhkəmə sistemləri, həm də məhkəmə istifadəçiləri üçün vaxta və resurslara qənaət edilməsinə imkan yaratmaqla geniş çeşidli işlərin həlli üsulu kimi tanınır. O həm də son nəticədə məhkəmələrdə iş yükünün azaldılmasına və beləliklə bütün məhkəmə sisteminin daha səmərəli olmasına yönəlib.

2007-ci ildə CEPEJ Avropa Şurası Nazirlər Komitəsinin mediasiya ilə bağlı Tövsiyələri[1] əsasında alətlər və rəhbər prinsiplər hazırlamaq üçün Mediasiya üzrə işçi qrupu (CEPEJ-GT-MED) yaratmışdır. CEPEJ-GT-MED "Cinayət işlərində mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər"i, "Ailə işlərində və mülki işlərdə mediasiyaya dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər"i, və "İdarəetmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativlərinə dair mövcud tövsiyənin daha yaxşı həyata keçirilməsi üçün rəhbər prinsiplər"i işləyib hazırlamışdır.[2]

Bu Tövsiyələr və Rəhbər prinsiplər həm CEPEJ ilə əməkdaşlıq fəaliyyətləri çərçivəsində, həm də birbaşa üzv dövlətlər tərəfindən istifadə edilmişdir. 2016-cı ildə CEPEJ CEPEJ-GT-MED-in fəaliyyətini aktivləşdirməyə qərar verdi ki, bunun da iki əsas məqsədi vardı:

- üzv dövlətlərdə Rəhbər prinsiplərin və Tövsiyələrin təsirini qiymətləndirmək,
- Rəhbər prinsipləri və Tövsiyələri yeni alətlərin köməyi ilə dolğunlaşdırmaq və dəstəkləmək.

2017-ci ildən 2019-cu ilə qədər CEPEJ-GT-MED mediasiyanın təşkilində və təşviqində mediasiyanın əsas subyektlərinə kömək edə biləcək geniş çeşidli konkret alətlər və sənədlər hazırlamışdır. Hazırda CEPEJ mediasiya sahəsində işini davam etdirir.

Bu hesabat əsasən mediatorların səmərəli və keyfiyyətli təlim sxemlərinin necə yaradılmasına və dəstəklənməsinə, ilkin mediasiya təlimi üçün minimum təlim standartlarının uzlaşdırılmasına və Azərbaycanda yetərli sayda yaxşı təlim almış mediatorların mövcud olmasına yönəlib. Beləliklə, əhatə dairəsi məhdud olan bu hesabat ölkədə mediasiya ilə bağlı bütün məsələlərin tam və hərtərəfli icmalını əks etdirmir. Hesabatda CEPEJ-in müvafiq sənədlərinə, xüsusilə 2019-cu ildə qəbul edilmiş "Mediasiya üzrə təlim sxemlərinin hazırlanması və monitorinqinə dair rəhbər prinsiplər"ə (bundan sonra "Rəhbər prinsiplər" adlandırılacaq), 2018-ci ildə qəbul edilmiş "Mediatorlar üçün baza səviyyəli təlim proqramı"na və 2019-cu ildə qəbul edilmiş "Mediasiya üzrə normayaratma barədə Avropa vəsaiti"ndə yer alan tövsiyələrə istinadlar yer alır. Hesabata həmçinin üzv dövlətlərdəki qabaqcıl təcrübələrə istinadlar daxil edilib, belə ki, həmin təcrübələr əsas məsələlərə münasibətdə rəhbər tutula bilər. II fəsil mediasiya üzrə təlim xidməti göstərənlərin fəaliyyətinin tənzimlənməsi ilə bağlı mümkün həll yollarından bəhs edir, III fəsil isə Azərbaycanda mediatorlar üçün ilkin təlim kursunun minimum standartlarına aiddir.

---

[1] Ailə işləri üzrə mediasiyaya dair Rec(98)1 saylı Tövsiyə, Cinayət işləri üzrə mediasiyaya dair (99)19 saylı Tövsiyə, İdarəetmə orqanları və özəl tərəflər arasında məhkəmə çəkişmələrinin alternativlərinə dair (2001)9 saylı Tövsiyə, Mülki işlər üzrə mediasiyaya dair (2002)10 saylı Tövsiyə.

[2] Onları burada tapmaq olar: <https://www.coe.int/en/web/cepej/cepej-work/mediation>.

Hesabat beynəlxalq məsləhətçilər Nina Betetto və Mariya Oliveyra tərəfindən hazırlanıb.

## II. Mediasiya üzrə təlim xidməti göstərənlərin fəaliyyətinin tənzimlənməsi

### 1. Mediasiyanın tənzimlənməsinə yanaşmalar

Qlobal nöqteyi-nəzərdən yanaşsaq, müasir mediasiyanı tənzimləmək üçün dörd əsas yanaşma müəyyən edilə bilər ki, aşağıda onlar institusionallaşma dərəcəsinə görə artan sıra ilə təqdim olunur.

Bazar yanaşmasına əsaslanan tənzimləmə mediasiyanın təşəkkül tapmasının erkən mərhələlərində, hələ kollektiv şəkildə təşkil edilmiş və daha çox formallaşdırılmış yanaşmalar meydana çıxmazdan əvvəl özünü daha çox büruzə verir. Mediasiyanın artan institusionallaşmasına baxmayaraq, yüksək səviyyəli kommersiya mübahisələrinə münasibətdə bazar-müqavilə yanaşması bəzi yurisdiksiyalarda (məsələn, ABŞ-də) inkişaf etməkdə davam edir. Burada tərəflər mediasiya şərtlərini öz fərdi tələbatlarına uyğunlaşdırmaq üçün standart qanunvericilik kimi mövcud olan müəyyən müştərək tənzimləmə sistemlərindən imtina etməyi qərara alırlar.

Özünütənzimləmə kollektiv, icma əsaslı və sahəvi tənzimləmə təşəbbüslərinə aiddir. Özünün ən təmiz formasında özünütənzimləmə yanaşmaları, yuxarıdan aşağıya doğru siyasət tənzimləməsindən fərqli olaraq, əməkdaşlığa, məsləhətləşmələrə və refleksiyaya əsaslanan prosesləri əhatə edən icma əsaslı təşəbbüsləri bildirir. Bu o deməkdir ki, kollektivdəki və ya qrupdakı mediatorlar problemləri müəyyən etmək, onlar üzərində düşünmək və öz həll yollarını müzakirə etmək imkanına malik ola bilərlər. Mediasiya sahəsində özünütənzimləmə alətlərinə təsdiqlənmə və fəaliyyət standartları və nümunəvi müddəalar daxildir. Bir çox yurisdiksiyalarda mediator üçün təsdiqlənmə və/yaxud mediasiya fəaliyyəti standartları məhkəmə mediasiyası proqramları əsasında mediatorların işəgötürənlərinin qurumları və mediasiya xidməti göstərən subyektlər tərəfindən sektorlar üzrə işlənib hazırlanmışdır. Bu, dövlətüstü qurumlar və məhkəmə sistemi olmadığı hallarda transmilli mediasiyanı tənzimləmək üçün üstünlük verilən metoddur.[3] Özünütənzimləmənin dərk edilən çoxlu faydaları vardır.[4] Tənzimləmə prosesinin iştirakçıları tənzimlənən qrupun və onun müxtəlif tərkib hissələrinin tələbat və maraqları haqqında dərin və dəqiq bilgiyə malik ekspertlərdir. Özünütənzimləmə özünütənzimləmənin strukturunun müəyyən edilməsi baxımından innovasiyaları və sərbəst seçim imkanlarını təşviq edir və daha formal tənzimləmə formalarına nisbətən daha çevik, adaptiv və reaktiv olur. Tənzimləmənin tətbiq edildiyi sahənin legitimliyi və tənzimlənməyə uyğunluğu özünütənzimləmə yanaşmalarının müştərək xarakteri sayəsində daha da gücləndirilir. Özünütənzimləmə həm də qanunvericilik tənzimləməsi ilə müqayisədə məlumatların toplanması ilə bağlı xərclərin azaldılması, monitorinq və icra tədbirlərinin azaldılması və rəsmiyyətlərin daha az olması ilə səciyyələnir. Özünütənzimləmə yanaşmaları ilə bağlı əsas risklər mövcud təcrübə və maliyyələşdirmə baxımından resursların səviyyələri ilə əlaqədardır. Effektiv proseslər əsas maraqlı qruplar, icmalar və hökumətlər tərəfindən davamlı səylər tələb edir. Sahə üzrə səylər və ekspertlərin iştirakı azaldığı hallarda özünütənzimləmə strukturları öz effektivliyini itirir və bu halda hökumət tərəfindən səylərin daha çox olmasına haqq qazandırmaq olar. Bundan əlavə,

---

[3] Beynəlxalq Mediasiya İnstitutunun (BMİ) özünütənzimləmə əsasında fəaliyyət göstərən özəl transsərhəd mediatorların akkreditasiyasına dair təşəbbüsü buna misaldır.

[4] Bax N. Aleksander, Mediasiya və tənzimləmə məharəti, Kvinslend Texnologiya Universiteti, "Hüquq və ədalət" jurnalı (Law & Justice Journal) (2008), səh. 7.

özünütənzimləmə sxemləri daha geniş maraqları əks etdirməyən fərdlərin və qrupların dominantlıq etdiyi situasiyaya gətirib çıxara bilər.

Mülki İşlər üzrə Mediasiya Şurası (MİMŞ)[5] İngiltərə və Uelsdə sahəvi əsasda milli özünütənzimləmənin ən bariz nümunəsidir. MİMŞ mülki, kommersiya, əmək və digər qeyri-ailə işləri üzrə mediasiya ilə bağlı bütün məsələlərlə məşğul olan tanınmış səlahiyyətli orqandır. O, hökumət, məhkəmə sistemi, hüquqşünaslar və sahəvi subyektlər üçün mediasiya məsələləri üzrə ilk əlaqə nöqtəsidir. MİMŞ məsuliyyəti zəmanətçilərin zəmanəti ilə məhdudlaşan qeyri-kommersiya şirkətidir və xeyriyyə təşkilatı kimi fəaliyyət göstərir. Onun 400-dən çox üzvü var və böyük konfranslar və forumlar təşkil edir. MİMŞ mediasiya xidmətləri göstərən təşkilatlar üçün akkreditasiya sxemini idarə edir. Mediatorlar və mediasiya xidməti göstərən subyektlər MİMŞ-nin qeydiyyatdan keçmiş üzvü ola bilərlər.[6] Qeydiyyat üçün əsas tələblər bunlardır: 1) təlim kursunu uğurla bitirib qiymətləndirilmədən keçmək; 2) cari mediasiya təcrübəsinə malik olmaq; 3) qəbul edilən etik davranış kodeksinə (məsələn, Aİ-nin "Mediatorlar üçün nümunəvi davranış kodeksi") riayət etmək; 4) peşə məsuliyyətini sığortalamaq; davamlı professional inkişaf; və 5) şikayətlərə baxılmasının dərc edilmiş proseduru. Ədliyyə Nazirliyi mübahisələrin alternativ həllinin (MAH) təbliği və geniş ictimaiyyət arasında mediasiya haqqında məlumatlılığın artırılması ilə aktiv şəkildə məşğul olsa da, mediatorların milli reyestrini aparmır və mediator olmaq üçün qeydiyyatdan keçmək məcburi deyil. Bununla belə, Nazirlik MİMŞ-nin akkreditasiya sxemindən keyfiyyət təminatı vasitəsi kimi istifadə edir.

Ailə İşləri üzrə Mediasiya Şurası (AİMŞ) ailə mediasiyası sahəsində MİMŞ-nin analoqudur. Beş muxtar üzvdən (Mediatorlar Kollegiyası, Hüquqşünaslar Cəmiyyəti, Ailə Mediatorları Assosiasiyası, Milli Ailə Mediasiyası Xidməti və Mübahisələrin Həlli Xidməti) ibarət olan AİMŞ ailə işlərinə baxan mediatorların fəaliyyətini tənzimləyir və hökumətlə və digər peşə qurumları ilə danışıqlarda bu peşəni təmsil edir. O, üzv təşkilatlar vasitəsilə və könüllülərin (onların çoxu mediatorluq fəaliyyəti ilə məşğul olanlar deyil) və muzdlu əməkdaşların dəstəyi ilə fəaliyyət göstərir. AİMŞ ailə mediasiyası sahəsində qabaqcıl təcrübəni təşviq etməyə çalışır, bunun üçün mediatorların reyestrini aparır; qeydiyyatdan keçmiş mediatorların hazırlığı və peşə təcrübəsi üçün standartları müəyyən edir; müəyyən etdiyi standartların yerinə yetirilməsini təmin edir; mediasiya üzrə məsləhət və məlumatlar təqdim edir; və dövlət qurumları və digər təşkilatlar qarşısında bu peşəni təmsil edir. Yalnız AİMŞ-də qeydiyyatdan keçmiş mediatorlara ailə işləri üzrə məhkəmə formalarının (blanklarının) mediasiya səhifəsini imzalamağa icazə verilir.

*"Formal çərçivə" yanaşmasında* ilkin olaraq mediasiyanın müxtəlif aspektlərinin formal parametrləri və ya rəhbər prinsipləri müəyyən edilir və mediasiya icması "özünütənzimləmə" zamanı mediasiyanın müxtəlif aspektlərini onların əsasında tənzimləyir. Beləliklə, "formal çərçivə" yanaşması yuxarıdan aşağıya və aşağıdan yuxarıya doğru tənzimləyici yanaşmaların toplusunu təmsil edir. Çərçivə adətən beynəlxalq konvensiyalar, direktivlər, qanunvericilik və nümunəvi qanunlar kimi qanunvericilik aktları və ya icra sənədləri formasında olur və bu çərçivələr daxilində könüllü özünütənzimləmə kimi daha yumşaq tənzimləmə formalarından istifadə edilməklə tənzimləmə detalları öz əksini tapa bilər. Avropa İttifaqının "Mülki və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair" 2008/52/EC saylı Direktivi[7] bu yanaşmanı çox yaxşı nümayiş etdirir. Orada mediasiyanın anlayışı verilir ki, bununla da

---

[5] Bax: https://civilmediation.org/.

[6] Mediatorlar tərəflərin mübahisəni həll etməsinə kömək edən neytral üçüncü tərəf olsalar da, mediasiya xidməti göstərən subyektlər mübahisələrin həlli üçün MAH xidmətləri təklif edən (xüsusi (mülki) və ya ümumi (publik) hüquq üzrə) hüquqi şəxslərdir (məsələn, Sinqapur Mediasiya Mərkəzi).

[7] Onu burada tapmaq olar: EUR-Lex - 32008L0052 - EN - EUR-Lex (europa.eu).

onun əhatə dairəsi müəyyənləşdirilir və daha sonra mediasiyanın Aİ-yə üzv dövlətlər tərəfindən tənzimlənməsi tələb olunan aspektləri müəyyən edilir.

*Tənzimləməyə münasibətdə formal qanunvericilik yanaşması* ilk növbədə mediasiyanı tənzimləmək üçün məhkəmə orqanları kimi formal institutlar tərəfindən dəstəklənən qanunvericiliyə əsaslanır. Mediasiya üzrə formal qanunvericilik strategiyaları dövlət tərəfindən mediasiyaya güclü dəstəkdir və qanuni mübahisələrin həlli təcrübəsi və peşə fəaliyyəti qismində mediasiyanın rəsmən tanınması baxımından mühüm əhəmiyyət kəsb edir. Qanunvericiliyin qəbulu prosesində səlahiyyətlərin ötürülməsi mümkün olsa da, bu vəzifə adətən hökumətin təsdiq etdiyi siyasətlərə uyğun fəaliyyət göstərən, dövlət tərəfindən maliyyələşdirilən tənzimləyici qurumlara həvalə olunur. Buna görə də, özünütənzimləmə sxemləri üçün xarakterik olan təcrübənin faydaları qanunvericilik prosesində itirilə bilər. Nəhayət, yuxarıdan aşağıya doğru qanunla tənzimləmə prosesləri mediasiyanın dəyərlərinə, yəni tərəflərin muxtariyyətinə və demokratik qərar qəbuletmə proseslərində iştiraka ziddir.

Bir qayda olaraq, ümumi hüquq ölkələrində mediasiyanın fəaliyyəti üçün qanunvericilik bazası həmişə zəruri hesab edilmir, belə ki, konfidensiallıq, qərəzsizlik və barışıq sazişlərinin icrasının məcburiliyi prinsipləri ümumi hüquq sistemində yetərincə təsbit olunub. Ümumi hüquq yurisdiksiyalarında mülki icraatların qaydaları məhkəmələrin özləri tərəfindən yeniləndikdə mediasiya da bu prosesə daxil edilir. Mülki hüquq sisteminin fəaliyyət göstərdiyi ölkələrdə isə vəziyyət fərqlidir. Bu yurisdiksiyaların bir çoxunun təcrübəsi göstərir ki, mediasiya prosedurları bütün maraqlı tərəflər tərəfindən ciddi şəkildə nəzərdən keçirilməzdən əvvəl müvafiq mediasiya prosesinin fəaliyyətinin əsasını təşkil edəcək prinsipləri müəyyən edən qanunun qəbul edilməsi bir sıra səbəblərə görə zəruri ola bilər.

Mediasiyanın tənzimlənməsinə bu dörd yanaşma bir-birini istisna etmir. Faktiki olaraq bütün yurisdiksiyalarda ən azı iki tənzimləmə yanaşmasının müvafiq aspektləri vardır; geniş mediasiya təcrübəsi olan yurisdiksiyalarda, çox güman ki, onların dördünün də tətbiq edilməsinin sübutunu tapmaq olar. Avropa Şurasına üzv dövlətlər arasında bir neçə ölkə (məsələn, Fransa, Almaniya və İtaliya) mediasiya xidməti göstərən subyektlərin və məhkəmələrin mediasiya sahəsində özünütənzimləmə sxemlərini ən azı müəyyən dərəcədə işləyib hazırlamalarına icazə verir.

## 2. Mediasiya təlimi sxemlərinin tənzimlənməsi – müqayisəli baxış

Bəzi yurisdiksiyalarda mediasiya üzrə təlim kurslarının bir növ formal tənzimlənməsi mövcud ola bilər. Bu, peşə qurumu vasitəsilə özünütənzimləmə və ya müvafiq dövlət qurumu/ədliyyə nazirliyi tərəfindən birbaşa tənzimləmə formasında ola bilər. Kənar qurum tərəfindən bu cür tənzimləmə mövcud olduqda, o, istənilən yurisdiksiyada bütün kurslara obyektiv şəkildə tətbiq oluna bilən minimum təlim standartlarını təmin edir. O təkcə yeni müdavimlərin tələbatlarının qiymətləndirilərək qarşılanması üçün istinad nöqtəsi rolunu oynamır, həm də ümumi təlim standartlarının yüksəldilməsinə kömək edə bilər. İstər dövlət, istərsə də özəl (kommersiya və ya qeyri-kommersiya) qurumlar mediasiya üzrə təlim kurslarını akkreditasiyadan keçirə və akkreditasiya tətbiq etmək hüququna malik ola bilər.

Mediasiya üzrə təlim sxemlərinin tənzimlənməsi formaları yuxarıda göstərilən müasir mediasiyanın tənzimlənməsi sahəsindəki yanaşmalarla ciddi surətdə əlaqələndirilir. Özünütənzimləmə yanaşmasını əks etdirən İngiltərə və Uels nümunəsi və formal qanunvericilik tənzimləməsinə əsaslanan Avstriya modeli aşağıda təqdim olunur. Sonda yuxarıdan aşağıya və aşağıdan yuxarıya tənzimləmə yanaşmalarının toplusunu təmsil edən Gürcüstan modeli də təqdim olunur.

Qeyd edildiyi kimi, AİMŞ İngiltərə və Uelsdə ailə mediasiyası ilə bağlı bütün məsələlər üzrə tanınmış özünütənzimləmə orqanıdır. 2012-ci ildə AİMŞ-nin qiymətləndirməsinə dair yekun hesabatda[8] tövsiyə edildi ki, "bütün mediasiya kurslarının təsdiqi üçün müstəqil surətdə təşkil edilmiş sistem olmalı və bu cür kursların tələblərə uyğunluğu kənar qurum tərəfindən aparılan akkreditasiya vasitəsilə tam qiymətləndirilməlidir. Üzv təşkilatların fəaliyyətinin özləri tərəfindən təsdiqlənməsi mexanizminə son qoyulmalı və mümkün qədər tez bir zamanda kənar qurum tərəfindən monitorinq və qiymətləndirmə aparılması üçün yeni mexanizmlər tətbiq edilməlidir. Bu sonuncu tövsiyəni yerinə yetirmək vəzifəsi AİMŞ-nin üzərinə düşür, bu məqsədlə o, kursların təsdiqi üçün, habelə kənar qurum tərəfindən yoxlanılmasının və qiymətləndirilməsinin monitorinqi üçün müstəqil komissiya təyin etməlidir". Hal-hazırda, bu tövsiyəyə uyğun olaraq, şəxs akkreditə olunmuş ailə işləri üzrə mediator olmaq üçün aşağıdakı addımları atmalıdır: 1) AİMŞ tərəfindən təsdiq edilmiş baza təlim kursunda iştirak etməli; 2) AİMŞ-yə üzv olan təşkilata daxil olmalı; 3) peşə fəaliyyəti üzrə məsləhətçi (PFM)[9] tapmalı; və 4) akkreditasiyanı həyata keçirən AİMŞ-də qeydiyyatdan keçməlidir.

Avstriya Ədliyyə Nazirliyi tərəfindən aparılan mediatorların siyahısına daxil edilmək üçün Avstriyada namizədlər ilk növbədə rəsmi qurumlar tərəfindən dəstəklənən qanunvericilikdə nəzərdə tutulmuş aşağıdakı meyarların şərtlərini yerinə yetirməlidirlər: yazılı ərizə təqdim etmək; azı 28 yaşında olmaq; mediator kvalifikasiyasına sahib olmaq; məhkumluğun olmadığı barədə polis orqanının verdiyi sənədin çıxarışını təqdim etmək; peşə məsuliyyətini sığortalamaq (sığortalanma ən azı 400.000 avro həcmində olmalıdır); və mediatorun öz xidmətlərini harada göstərəcəyi barədə məlumat təqdim etmək. Namizədlər aşağıdakı hallarda meyarlara uyğun hesab edilir: müvafiq təlimi keçiblər; mediasiya üzrə bilik və bacarıqları nümayiş etdiriblər; və baza səviyyəli hüquqi və psixo-sosial təlimləri başa vurublar. Təlim universitetlər də daxil olmaqla qeydiyyatdan keçmiş təlim müəssisələrində aparılıbsa, “uyğun” hesab edilir. Avstriya Ədliyyə Nazirliyi həmin təlim müəssisələrinin siyahısını aparır. Təlimin məzmunu Avstriyanın Mülki işlər üzrə mediasiya məcəlləsində və müvafiq qanun qüvvəli aktlarında müəyyən edilir.

Gürcüstan Mediatorlar Assosiasiyası (GMA) Gürcüstanda mediatorların özünütənzimləməsini təmin edən, "Mediasiya haqqında" Qanun əsasında yaradılan, üzvlüyə əsaslanan publik hüquqi şəxsdir. GMA-nın üzvləri Mediatorların vahid reyestrində qeydiyyatdan keçmiş mediatorlardır.[10] "Mediasiya haqqında" Qanun (14-cü maddənin 6-cı bəndi) GMA-ya digər səlahiyyətlərlə yanaşı mediatorlar üçün sertifikatlaşdırma proqramı ilə müəyyən edilmiş şərtlərə cavab verən quruma/təşkilata mediasiya təlimlərini təşkil etmək və keçirmək hüququ vermək səlahiyyəti verir. Hazırda Gürcüstanda altı akkreditə olunmuş mediasiya təlimi təşkilatı mövcuddur.

---

[8] Con Makeldauni, AİMŞ-nin qiymətləndirməsinə dair yekun hesabat, https://www.familymediationcouncil.org.uk/wp-content/uploads/2014/02/fmc_review_mceldowney_report.pdf.

[9] PFM tam akkreditasiyaya malik olan və Ailə İşləri üzrə Mediasiya Standartları Şurası tərəfindən müəyyən edilmiş bir sıra tələbləri yerinə yetirmiş təcrübəli mediatordur. Onlar akkreditasiyadan keçmək istəyən mediatorlara portfoliolarının yaradılması prosesində kömək etmək istiqamətində çalışırlar. PFM olmadan akkreditə olunmaq mümkün deyil. Akkreditə olunmuş mediatorlar öz PFM-i ilə əlaqə saxlayır və onunla ildə müəyyən edilmiş minimum sayda saatlar ərzində görüşlər keçirir ki, bu da müəyyən dərəcədə onların akkreditə olunmuş mediator statusunu saxlamalarına imkan verir.

[10] Məhkumluğu olmayan, mediatorlar üçün sertifikatlaşdırma proqramına uyğun olaraq mediatorlar üçün mediasiya hazırlığı/təlimi kursunu keçən və GMA tərəfindən verilmiş sertifikata malik olan fəaliyyət qabiliyyətli fiziki şəxs Mediatorların vahid reyestrində qeydiyyata alına bilər.

## 3. Azərbaycanda mediasiya üzrə təlim xidməti göstərənlərin fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirilməsi

### a. Ümumi məlumat

Azərbaycana gəlincə, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (bundan sonra “Qanun” adlandırılacaq) mediasiyaya dair müxtəlif növ müddəalar yer alır: 1) mediasiyanı işə salan mexanizmlər (məsələn, məcburi ilkin mediasiya sessiyası və məhkəmə tərəfindən mediasiyaya yönləndirilmə); 2) prosessual müddəalar (məsələn, mediasiyanın başlanması və mediasiyaya xitam verilməsi, habelə mediatorların seçilməsi və təyin edilməsi barədə müddəalar); 3) mediasiya iştirakçılarının və kənar tərəflərin hüquq və vəzifələrini müəyyən edən və bununla da mediasiya prosesinin dürüstlüyünü qoruyan müddəalar (məsələn, mediasiya çərçivəsində əldə edilmiş razılaşmaların konfidensiallığı və məcburi icrası ilə bağlı müddəalar); və 4) mediatorların kvalifikasiyaları, səriştəlilik standartları və sertifikatlaşdırılması və ya qeydiyyatı kimi məsələləri müəyyən edən müddəalar. Mediatorların (ilkin və davamlı) hazırlığına yönələn təlimlərin tənzimlənməsinə dair müddəalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 sentyabr 2019-cu il tarixli Qərarı ilə təsdiq edilmiş “Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası”nın müddəaları vasitəsilə dolğunlaşdırılır.

"Mediasiya haqqında" Qanun mediatorların, mediasiya təşkilatlarının və mediasiya təlimi qurumlarının qeydiyyatını aparmaq səlahiyyətlərini Mediasiya Şurasına verməklə (Qanun, maddələr 20, 20.1.4. və 15, 15.1.) onun tərəfindən standartların müəyyən edilməsi kimi mühüm funksiyanın yerinə yetirilməsinin əsasını qoyur. Mediasiya Şurasının Nizamnaməsinin (Ədliyyə Nazirliyi tərəfindən 21 fevral 2020-ci il tarixdə No 1120-QX10-0069 ilə qeydiyyata alınmışdır) 5.9-cu maddəsinə əsasən, Şuraya üzvlük haqqı aylıq ödənilməklə mediasiya təlimi qurumları üçün 1000 (min) manat[11] həcmində müəyyən edilir. Bu o deməkdir ki, mediasiya üzrə təlim xidməti göstərmək istəyən subyektlər Mediasiya Şurasında qeydiyyatdan keçməli və üzvlük üçün ağır aylıq haqq ödəməyə borcludurlar, çünki bu üzvlük mediasiya təlimi qurumu qismində ixtisaslaşmaq üçün şərtlərdən biridir. Sözsüz ki, mediasiya təlimi qurumları təlim proqramlarının hazırlanmasına, təlimlərin keçirilməsi üçün məqbul maddi şəraitin təmin edilməsinə investisiya qoymalı və mediasiya təlimçilərinin mükafatlandırılmasını təmin etməlidir, bütün bu xərclər öz ixtisaslarını artırmaq istəyən mediator və ya mediator vəzifəsini icra edən namizədlər üçün nəzərdə tutulur. Buna görə də, yuxarıda qeyd olunan tənzimləmə Azərbaycan Respublikasında mediasiya üzrə təlim təklifinin təkmilləşdirilməsi və şaxələndirilməsi üçün ciddi maneə ola bilər və ona əsaslı şəkildə yenidən baxılması tövsiyə olunur.

Hazırda ölkədə yalnız bir mediasiya təlimi qurumu fəaliyyət göstərir ki, o da Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasıdır. Digər mühüm funksiyaları və hədəf qruplarını nəzərə alsaq, Ədliyyə Akademiyasının mediatorlar üçün təlim sessiyaları keçirmək imkanları məhduddur ki, bu da baza səviyyəli təlim almaq istəyən namizədlər üçün uzun gözləmə siyahısının olması ilə nəticələnir.

[11] Azərbaycan Respublikası Mərkəzi Bankının 19.10.2023-cü il tarixinə olan məzənnəsinə əsasən, 538,56 Avro ekvivalenti (https://www.cbar.az)

Görünən odur ki, mediasiya üzrə daha çox təlim təşkilatlarının olmasına ehtiyac duyulduğu barədə rəylər üstünlük təşkil edir.

## b. Mediasiya üzrə təlim xidməti göstərənlər və təlim kursları akkreditə olunmalıdır

Mediatorlar üçün yüksək keyfiyyətli, hərtərəfli təlimlərin olması mediasiyanın keyfiyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Bəzi milli qanunvericilik aktlarında mediatorların mediatorlar üçün müəyyən edilmiş təlim keçməli olduğunu nəzərdə tutan qeyri-müəyyən müddəalar bu məqsədə çatmaq üçün yetərli deyil. "Mediasiya üzrə normayaratma barədə Avropa vəsaiti"ndə milli qanunvericilik orqanları təlimin keyfiyyətini təmin etməyə təşviq edilir, təlim xidməti göstərənlər isə təlim sxemlərinin təməl daşı kimi göstərilir. Təlimin keyfiyyətinə aşağıdakıların vasitəsilə nail olmaq olar: 1) mediatorların təliminin yüksək səviyyəsini təmin etmək üçün təlim verənlərin lisenziyalaşdırılması və ya təlim verənlərin rəsmi siyahısının aparılması; və 2) təlim proqramlarının həyata keçirilməsinə icazə verilməsi.[12]

Yuxarıda qeyd olunan tövsiyələrə uyğun olaraq, məsləhətçilər mediasiya üzrə bütün təlim kurslarının təsdiqi üçün müstəqil akkreditasiya qurumunun yaradılmasını dəstəkləyirlər. Bu kursların və təlim xidməti göstərənlərin tələblərə uyğunluğu akkreditasiya qurumu tərəfindən hərtərəfli qiymətləndirilməli və təsdiq edilməlidir. Yəqin ki, Mediasiya Şurası bu vəzifənin yerinə yetirilməsi üçün ən uyğun qurumdur. O ya bu vəzifəni təkbaşına yerinə yetirə bilər, ya da bu məqsədlə gündəlik fəaliyyətlərində müəyyən dərəcədə muxtariyyətə malik olan ixtisaslaşdırılmış komissiya yarada bilər. Təlim qurumları və proqramları üçün standartları müəyyən edərkən Mediasiya Şurasının "Mediatorlar üçün baza səviyyəli təlim proqramı"nı nəzərə alması tövsiyə olunur.

Qanun mediasiya təşkilatlarının təlim qurumu qismində Mediasiya Şurasına qəbul olunması şərtlərini müəyyən etməklə belə bir sistemin əsasını qoyur (maddə 14, 14.5.). Təlim və praktika arasında sıx əlaqəni nəzərə alsaq, təlim qurumlarının Qanuna əsasən mediasiya xidməti göstərənlər kimi fəaliyyət göstərməsinə maneə yaradılmaması alqışlanmalıdır və CEPEJ-in bu tövsiyəsinə uyğundur ki, təlim modullarının tədrisi başa çatdıqdan sonra iştirakçıların müşahidəçi və ya müştərək mediator kimi fəaliyyət göstərməsini asanlaşdırmaq və dəstəkləmək üçün təlim xidməti göstərənlərin həm də mediasiya xidməti göstərənlər kimi fəaliyyət göstərməsinə maneə yaradılmamalıdır.[13]

Bununla belə, qeyd etmək lazımdır ki, görünən odur ki, hazırda Azərbaycanda təlim xidməti göstərənlərin akkreditasiya sistemi deyil, qeydiyyat sistemi mövcuddur. Mediasiya Şurası kimi müstəqil qurum tərəfindən akkreditasiyanın həyata keçirilməsinə üstünlük vermək üçün bir neçə arqument var:

- Akkreditasiya adətən qeydiyyatla müqayisədə daha hərtərəfli və ciddi qiymətləndirmə prosesini əhatə edir. Mediasiya Şurası kimi müstəqil qurum, yəqin ki, akkreditasiya üçün yüksək standartlar müəyyən edəcək ki, bunun nəticəsində yalnız ciddi meyarlara cavab verən təlim xidməti göstərənlərin akkreditasiyadan keçməsi təmin ediləcək.
- Akkreditasiya çox zaman davamlı monitorinq və qiymətləndirməni nəzərdə tutur. Akkreditə olunmuş təlim xidməti göstərənlər, yəqin ki, vaxtaşırı yoxlamalara məruz qalacaq ki, bu da onların zaman keçdikcə öz təlim proqramlarının keyfiyyətini qoruyub

[12] Mediasiya üzrə normayaratma barədə Avropa vəsaiti, səh. 47-48
[13] Rəhbər prinsiplər, səh. 2.

saxlamasını təmin edəcək. Davamlı nəzarətin belə bir səviyyəsi sadə qeydiyyat prosesi çərçivəsində təmin edilməyə bilər.

- Nüfuzlu və müstəqil qurum tərəfindən akkreditə olunması təlim xidməti göstərənə etimadı artırır. Təlim xidməti göstərənin Mediasiya Şurası tərəfindən akkreditasiya olunaraq təsdiqlənməsi mediatorluq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə və bütövlükdə cəmiyyətə həmin təlim xidməti göstərənin tanınmış standartlara cavab verdiyini bildirir və təlimin keyfiyyətinə inamı artırır.
- Akkreditasiya təlimçilər üçün davamlı professional inkişaf tələblərini özündə ehtiva edə bilər ki, bu da onların mediasiya sahəsində ən son inkişaflar proseslərindən xəbərdar olmasını təmin edir. Davamlı təkmilləşməyə bu cür diqqət yetirilməsi mediasiya təlimlərinin aktuallığını və effektivliyini qorumaq üçün çox vacibdir.
- Müstəqil qurum tərəfindən akkreditasiya olunmaları müxtəlif təlim xidməti göstərənlər üçün uzlaşdırılmış və vahid standartlar toplusunun müəyyən edilməsini təmin edir. Bu uzlaşma mediasiya təlimi üçün vahid və etibarlı çərçivənin yaradılmasından ötrü vacibdir, təkcə qeydiyyata əsaslanan sistemdə isə bu olmaya bilər.

## c. Keyfiyyətin idarə olunması

Təlim xidməti göstərənlər üçün akkreditasiya sistemindən başqa, keyfiyyətin idarə edilməsi və müstəqil monitorinq tədbirləri də tətbiq edilməlidir ki, bunda məqsəd təlim xidməti göstərənlərin zəruri standartlara uyğunluq səviyyəsini saxlamalarını və qaydalar və ya digər şərtlər tələb etdikdə inkişaflarını davam etdirmələrini təmin etməkdir.

Mediasiya təlimi kontekstində keyfiyyətin idarə edilməsi *təlim təşkilatlarında tətbiq edilən* sistematik prosesləri və təcrübələri əhatə edir ki, bu da keçirilən təlimlərdə yüksək standartların davamlı olaraq təkmilləşdirilməsini və qorunub saxlanılmasını, o cümlədən aşağıdakıları təmin edir:

- Beynəlxalq standartlara və qabaqcıl təcrübələrə uyğun olan dəqiq ifadə edilmiş və aktual **təlim proqramı** (ətraflı şəkildə III fəslə bax).
- **Təlimçilərin səriştələri (kvalifikasiyaları).** Təlimçilərin təcrübəli və səriştəli mediator olmasını təmin etmək çox vacibdir. Mediasiya üzrə təlim xidməti göstərənlər təlimçilərin seçilməsi, öyrədilməsi və mütəmadi olaraq fəaliyyətinin qiymətləndirilməsi üzrə etibarlı sistemə malik olmalıdır. CEPEJ vurğulayır ki, təlimçi kimi fəaliyyət göstərmək istəyən hər kəs mediasiya üzrə təlim kursunda iştirak edərək kursu uğurla bitirməli və müvafiq yurisdiksiyada mediatorun qeydiyyatı tələb olunarsa, təlimçilər mediator kimi qeydiyyatdan keçməlidirlər. Öz rolunu yerinə yetirmək üçün ilkin şərt kimi təlimçilər üçün kifayət qədər təlimlərdə iştirak etmək tələbi[14] həm də o deməkdir ki, təlimçi kimi yalnız təcrübəli mediatorlar çıxış etməlidir. Nəhayət, keyfiyyətin idarə olunması təlimçilərin mediasiya sahəsində ən son tendensiyalar və metodologiyalar barədə məlumatlı olmasını təmin etmək üçün davamlı professional inkişafını özündə ehtiva edir. Təlimçilərin inkişaf edən mediasiya təcrübələrindən xəbərdar olmalarının faydalarını nəzərə alaraq, CEPEJ xatırladır ki, təlimçilər hər iki ildən bir ən azı bir dəfə baza səviyyəli mediator bacarıqları üzrə təlim kursu və ya təkmilləşdirmə kursu keçirməlidirlər.[15] Qanun əsas etibarilə bu standartları özündə əks etdirir (maddə 14, 14.5.).

[14] Rəhbər prinsiplər, səh. 15.
[15] Rəhbər prinsiplər, səh. 15.

- **İştirakçıların rəyləri.** İştirakçıların rəylərinin toplanması keyfiyyətin idarə edilməsinin mühüm aspektidir. Bu işi təlim təşkilatı daxilində müntəzəm olaraq həyata keçirilən bir sıra fəaliyyətlər vasitəsilə yerinə yetirmək olar, məsələn, təlimdən sonrakı qiymətləndirmələr, sorğular, əks əlaqə sessiyaları və ya təlim sessiyalarının monitorinqi buraya daxildir. Toplanan rəylərin təhlil edilməsi təlim xidməti göstərənin təkmilləşdirilməli sahələri müəyyənləşdirməsinə kömək edir və təlimin iştirakçıların ehtiyaclarına cavab verməsini təmin edir.
- **Şikayətlərə baxılması.** Keyfiyyətin idarə edilməsi çərçivəsində təlim xidməti göstərənlər təlimin keyfiyyəti ilə bağlı şikayətlərə baxılması, zəruri hallarda araşdırmaların aparılması və korrektəedici tədbirlərin həyata keçirilməsi üçün strukturlaşdırılmış prosesə malik olmalıdırlar. Bundan əlavə, qiymətləndirmə elementini özündə ehtiva edən kurslarda qiymətləndirmənin nəticəsi ilə razı olmayan iştirakçılar üçün təlim təşkilatı daxilində dəqiq şəkildə müəyyən edilmiş apellyasiya prosesi nəzərdə tutulmalıdır.

## d. Müstəqil monitorinq tədbirləri

Mediasiya təlimi kontekstində müstəqil monitorinq qərəzsiz kənar qurum tərəfindən mediasiya üzrə təlim xidməti göstərənlərin işinin keyfiyyətinin, effektivliyinin və standartlara riayət olunmasının təhlili və qiymətləndirilməsi proseslərini nəzərdə tutur. Müstəqil monitorinqin məqsədi şəffaflığı, hesabatlılığı və mediasiya təlimi ilə bağlı yüksək standartları təmin etməkdir. Bundan əlavə, o, mediasiya üzrə təlim xidməti göstərən müxtəlif subyektlər arasında mediasiya təlimlərinin vahid keyfiyyətini təmin edir.

Bu vəzifə Mediasiya Şurasına və ya bu məqsədlə Mediasiya Şurası tərəfindən yaradılan xüsusi muxtar komissiyaya həvalə edilə bilər. Müstəqil monitorinq tədbirləri aşağıdakıları özündə ehtiva edə bilər, lakin təkcə onlarla məhdudlaşmır:

- **Təlim sessiyasının monitorinqi:** Təlimin effektivliyini qiymətləndirmək və məzmunun müəyyən edilmiş standartlara və akkreditə olunmuş təlim kursunun məzmununa uyğun olmasını təmin etmək üçün təlim sessiyalarının birbaşa müşahidəsi.
- **Məmnunluq sorğuları:** Təlim təşkilatı daxilində təlim iştirakçılarının rəylərinin toplanmasından əlavə, iştirakçılar arasında qərəzsiz kənar qurum tərəfindən vaxtaşırı məmnunluq sorğuları keçirilə bilər. Əldə edilmiş məlumatlar təlim xidməti göstərən müxtəlif subyektlərin işinin keyfiyyətinin qiymətləndirilməsi və təkmilləşdirilməli sahələrin müəyyən edilməsi üçün istifadə oluna bilər.
- **Sənədləşdirilmiş hesabatlar:** Təlim xidməti göstərənlərdən müntəzəm hesabatların tələb edilməsi şəffaflığı və hesabatlılığı təmin edir. Bu hesabatlara iştirakçıların sayı, təlimçilər, istifadə olunan təlim metodologiyaları və proqramlarda edilən hər hansı dəyişikliklər haqqında ətraflı məlumatlar daxil edilə bilər.
- **Apellyasiya prosesləri:** Mediasiya Şurası və ya Mediasiya Şurasının nəzdində yaradılan komissiya təlim kursundan və ya aparılmış qiymətləndirmənin nəticəsindən narazı qalan iştirakçılar üçün ikinci instansiya rolunu oynaya bilər, bir şərtlə ki, əvvəlcə həmin iştirakçılar təlim xidməti göstərən subyekt daxilindəki şikayət prosedurunu tükəndirmiş olsunlar.

## e. Akkreditasiyanın ləğvi

Nəhayət, mediasiya təlimi sxemləri ilə bağlı tələblərin davamlı şəkildə yerinə yetirilməməsi nəticəsində təlim xidməti göstərən subyektin və ya təlim kursunun akkreditasiyasının ləğvi baş verə bilər. Bu məqsədlə mediasiya üzrə təlim xidməti göstərən subyektin və ya təlim kursunun siyahıdan çıxarılması

üçün dəqiq əsaslar müəyyən edilməlidir (məsələn, akkreditasiya tələblərindən birinə əməl edilməməsi, təlimin məqsədlərinə prinsipcə nail olunmaması, sertifikatların verilməsində dəfələrlə kobud yanlışlıqlara yol verilməsi və ya təlim müəssisəsinin xəbərdarlıqlara baxmayaraq hesabat vermək öhdəliyini pozması və ya fəaliyyətinin davamlılığına təminat verilməməsi)[16].

Akkreditasiyanın ləğvi ilə bağlı qərarlar əsaslandırılmalı və onlardan şikayət etmək üçün apellyasiya proseduru nəzərdə tutulmalıdır, belə şikayət inzibati qaydada verilə bilər.

## 4. Tövsiyələr

Azərbaycanda mediasiya təliminə tələbatı ödəmək üçün birdən çox təlim təşkilatının fəaliyyət göstərməsi tövsiyə olunur. Təlim xidməti göstərən subyektlərin/təşkilatların Mediasiya Şurası kimi müstəqil orqan tərəfindən akkreditasiyası mediasiya üzrə təlim xidməti göstərənlərin işinin keyfiyyətini və effektivliyini təmin etmək üçün güclü və etibarlı mexanizm təşkil edə bilər. Bu məqsədlə aşağıdakılar nəzərdən keçirilə bilər:

- mediasiya təlimi üzrə xidmət göstərən bütün subyektlərin akkreditasiyası üçün müstəqil sistem yaratmaq;
- mediasiya üzrə təlim xidməti göstərən təşkilat olmaq üçün peşə və bacarıqlara malik olan qurumları müəyyən etmək və onları həvəsləndirmək, və mediasiya təlimi qurumları üçün Mediasiya Şurasına ağır üzvlük haqqını nəzərdən keçirmək;
- belə bir müstəqil sistem daxilində "Mediatorlar üçün baza səviyyəli təlim proqramı"nı və bu hesabatda əks olunan digər tövsiyələri nəzərə almaqla təlim proqramlarını təsdiqləmək (III fəslə bax);
- təlim təşkilatlarına münasibətdə keyfiyyətin idarə edilməsi tədbirlərini tətbiq etmək;
- təlim təşkilatlarına münasibətdə qərəzsiz kənar qurum (bu qurum Mediasiya Şurası və ya Mediasiya Şurasının yaratdığı muxtar komissiya ola bilər) tərəfindən həyata keçirilən müstəqil monitorinq tədbirlərini tətbiq etmək;
- mediasiya təliminə dair tələblərin yerinə yetirilməməsi nəticəsində təlim təşkilatının və ya təlim kursunun akkreditasiya siyahısından çıxarılması üçün dəqiq əsasları müəyyən etmək.

# III. Azərbaycanda mediatorlar üçün ilkin təlim proqramının minimum standartları

## 1. Giriş

Bu hesabatın ikinci hissəsində Azərbaycanda mediasiya təlimi proqramlarının mövcud vəziyyəti ilə bağlı qənaətlər və baza səviyyəli mediasiya təlimi proqramları üçün minimum standartların hazırlanması ilə bağlı tövsiyələr təqdim olunur.

[16] Bax: Avstriya Respublikası, "Mülki-hüquqi işlərdə mediasiya haqqında" Qanun. Bundesgesetzblatt I № 29/2003, maddə 28(1).

Azərbaycanın mədəni və sosial xüsusiyyətlərinə lazımi qaydada uyğunlaşdırılmış təlim proqramlarının və materiallarının təkmilləşdirilməsinə ehtiyac olduğu etiraf edilir. Faktiki olaraq, mediasiya prinsipləri və prosesi, eləcə də mediatorun rolu mediasiyanın universal əsaslarını təşkil edir, yəni dünyanın istənilən yerində istənilən mediator öz fəaliyyətində yurisdiksiyasından asılı olmayaraq bütün mediatorlar üçün ümumi olan prinsiplərə, etik vəzifələrə riayət etməli və bacarıqlara sahib olmalıdır. Bununla belə, mediasiya təlimi proqramının effektiv və məhsuldar olması üçün o, müəyyən bir dövlətin və cəmiyyətin tələbatlarına və xüsusiyyətlərinə uyğun hazırlanmalıdır.

Bu məqsədlə hazırkı hesabatın müəllifləri 2023-cü ilin oktyabrında Bakıda keçirilmiş "mediasiya təlimçiləri üçün təkmilləşdirilmiş təlim" zamanı gəlinmiş qənaətləri nəzərə alırlar.

Eyni zamanda, qüvvədə olan hüquqi baza, yəni "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra "Qanun" adlandırılacaq), xüsusilə də onun mediasiya təlimlərinə dair müddəaları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 sentyabr 2019-cu il tarixli Qərarı ilə təsdiq edilmiş "Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası" (bundan sonra "Qayda" adlandırılacaq) qəbul edilmişdir, sonuncusu "mediator olmaq istəyən şəxslərin ilkin hazırlığı, habelə mediatorların ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müəyyən edir" və beləliklə Qanunun müddəalarını dolğunlaşdırır.

Qanunun 10.1.4-cü maddəsinə əsasən, mediator statusu, digər tələblərə cavab verməklə yanaşı, mediatorun ilkin hazırlığı proqramı üzrə təlimi başa vurmuş və mediasiya təlimi qurumu tərəfindən verilən sertifikatı almış fiziki şəxslərə verilir. Eynilə, bu qurum həm də ixtisasartırma kursunu bitirmiş mediatorlara sertifikatlar verir.

"Qayda"da mediatorların ilkin hazırlığı ilə bağlı müddəalar, yəni aşağıdakılar yer alır:

"2.4. Mediatorların tədris proqramları nəzəri hissə (mühazirələr), praktiki məşğələlər, treninqlər və səhnələşdirilmiş mediasiya oyunlarından ibarətdir.

2.5. Mediatorların fəaliyyətinin təcrübi xarakter daşıdığını nəzərə alaraq, nəzəri hissə ümumi məşğələlərin 40 faizindən çoxunu təşkil etməməlidir.

2.6. Mediatorların ilkin hazırlığı üzrə təlim üçün tədris proqramında nəzərdə tutulmuş mediasiya dərslərinin saatı 48 saat, ixtisasartırma kursları üçün isə 32 saatdan az olmamalıdır.

(...)

2.15. Təlim qruplarında dinləyicilərin sayı 15 nəfərdən çox olmamalıdır.

(...)

3.2. İmtahanda mediatorun nəzəri bilikləri müsahibə vasitəsilə, praktiki vərdişləri isə mediasiya imitasiyası vasitəsilə yoxlanılır.
(...)

3.4. İmtahan təlim qurumunun rəhbəri tərəfindən formalaşdırılan komissiya tərəfindən keçirilir. İmtahan komissiyası Mediasiya Şurasının, mediasiya təlimi qurumunun nümayəndəsi və müstəqil ekspertdən ibarət olmaqla, 3 nəfər tərkibdə formalaşdırılır və qərar səsvermə yolu ilə komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir".

Həmçinin yuxarıda qeyd olunan "Qayda"ya uyğun olaraq Ədliyyə Akademiyasının hazırladığı təlim proqramlarını, yəni "mediator üçün tələb olunan biliklərin və mediasiya bacarıqlarının inkişafına imkan yaradan" “Mediatorların ilkin hazırlığı üzrə təlim proqramı”nı (01.05.2023-07.07.2023-cü il tarixləri arasında) (bundan sonra "May 2023-cü il tarixli Proqram" adlandırılacaq), habelə “Mediatorlar üçün ixtisasartırma üzrə təlim proqramı”nı (12.06.2023-25.06.2023-cü il tarixləri arasında) (bundan sonra "İyun 2023-cü il tarixli Proqram" adlandırılacaq) nəzərdən keçirmək lazımdır (Əlavə 1 və 2).

Hər iki “Proqram”da qeyd edilir ki, mediasiya prinsipləri və mərhələlərinə həsr olunan mövzular Mübahisələrin Alternativ Həlli (MAH) Mərkəzinin “Mediatorlar üçün vəsait"inə uyğun surətdə hazırlanmışdır və belə başa düşmək olar ki, o, özündə videoları və təqdimat (prezentasiya) fayllarını ehtiva edən təlim materialları toplusunun komponentini təşkil edir və onların çoxu Azərbaycan dilinə tərcümə edilib. Avropa İttifaqının layihəsi çərçivəsində beynəlxalq ekspertlərin dəstəyi ilə hazırlanmış bu materiallar milli təlimçilər tərəfindən onların sonrakı fəaliyyətlərinə uyğunlaşdırılmışdır.

May 2023-cü il tarixli Proqram ilkin hazırlıq kursundan ibarətdir və 48 saat davam edir, İyun 2023-cü il tarixli Proqram isə iki ildə bir dəfə keçirilən və 32 saat davam edən ixtisasartırma kursuna aiddir.

Eyni zamanda, Ədliyyə Akademiyası, müvafiq olaraq, ailə işləri üzrə mediasiya təlimi (24.01.2023-30.01.2023-cü il tarixləri arasında) və əmək mübahisələri üzrə mediasiya təlimi (21.01.2023-28.01.2023-cü il tarixləri arasında) üçün iki ixtisaslaşdırılmış proqram hazırlamışdır (Əlavə 3 və 4).

Lakin bu hesabat əmək mübahisələri üzrə və ailə işləri üzrə ixtisaslaşdırılmış mediasiya təlimi proqramlarına həsr olunmayıb, çünki belə hesab edilir ki, onların tam uyğunluğunu və uzlaşdırılmasını təmin etmək üçün onlara yenidən baxılması yalnız baza səviyyəli (ilkin) mediasiya təlimi başa çatdıqdan sonra həyata keçirilməlidir.

Eyni rəy Qanunun 14.1-ci maddəsində nəzərdə tutulan və yuxarıda qeyd edilmiş İyun 2023-cü il tarixli Proqramla əlaqədar olan “mediatorların ixtisasının artırılması” və ya professional inkişafı üzrə təlimə də aiddir.

Cənab Leonardo D’Urso tərəfindən tərtib edilmiş və 2023-cü ilin oktyabrında Dünya Bankı tərəfindən maliyyələşdirilən “Məhkəmə xidmətləri və ağıllı infrastruktur layihəsi” çərçivəsində dərc edilmiş “Yekun tövsiyələr paketi və fəaliyyət planı”nda yeni təlim materialları və modulları ilə bağlı aşağıdakılar təklif edilir:

- “Nəticə 2.3. Yeni və innovativ təlim materiallarının hazırlanmasında yerli təlimçilərə və təlim qurumlarına kömək etmək”.
- “Nəticə 2.5. Etik davranış qaydaları da daxil olmaqla, mövcud mediatorlar üçün qabaqcıl və ixtisaslaşdırılmış mediasiya təlimi modullarının hazırlanması və təklif edilməsində yerli təlimçilərə və qurumlara kömək etmək (davamlı professional inkişaf)”.

CEPEJ-in hazırladığı "Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti"nə daxil olan “Rəhbər prinsiplər” aşağıdakı mövzuların hazırlanması üçün istinad sənədi kimi istifadə olunacaq: **kursun məzmunu, bacarıqlar modeli, kursun müddəti, tədris prosesinə münasibətdə ümumi yanaşma, iştirakçılar üçün materiallar, rol oyunlarının təşkili, əks əlaqə (rəylərin təqdim edilməsi), fəaliyyətin qiymətləndirilməsi və akkreditasiya**.

Bundan əlavə, mənbələr sırasına həmçinin digərləri, konkret olaraq İnsan Resurslarının İnkişafı Akademiyasının (AIRH) ADDIE (*Analyse, Design, Development, Implementation and Evaluation* – Təhlil

etmə, planlaşdırma, hazırlama, reallaşdırma və qiymətləndirmə) modelinə dair nəşri və Sinqapur Beynəlxalq Mediasiya İnstitutunun (SIMI) "Mediatorlar üçün bacarıqlar modeli" daxil ediləcək.

## 2. Mediasiya üzrə baza səviyyəli təlim kursunun məzmunu

“Rəhbər prinsiplər”ə əsasən, mediasiya bacarıqları üzrə istənilən təlim proqramı üçün fundamental əhəmiyyət daşıyan və əhatə edilməli olan müəyyən mövzular vardır. Bunlar “Mediatorlar üçün baza səviyyəli təlim proqramı”nda qeyd edilən aşağıdakı mövzulardır:

**1. Biliklərin inkişaf etdirilməsi**
1.1. Münaqişə nəzəriyyəsi
1.2. Mübahisələrin ənənəvi həlli və mediasiya
1.3. Mediasiyanın əsasları
1.3.1. Mediasiyanın əsas prinsipləri
1.3.2. Mediasiyanın məqsədləri
1.3.3. İşlərin mediasiya üçün uyğunluğunun qiymətləndirilməsində göstəricilər və əks-göstəricilər
1.4. Mediatorun əsas atributları
1.5. Mediasiyada tərəflərin, onların vəkilinin və digər iştirakçıların rolları
1.6. Mediasiya üslubları
1.7. Mediasiyanın mərhələləri
1.8. Hüquqi baza
1.9. Mediasiyada mediatorlar, hakimlər, vəkillər, mediasiya istifadəçiləri və digər maraqlı tərəflər arasında qarşılıqlı əlaqə
1.10. Mülki, ailə, cinayət və inzibati hüquqa aid işlərdə mediasiyanın əsas xüsusiyyətləri və fərqləri
**2. Praktik bacarıqların inkişafı üzrə təlim**
**3. Mülki, cinayət və inzibati hüquqa aid işlərdə ixtisaslaşdırılmış mediasiya təliminin xüsusiyyətləri**

Deyildiyi kimi, bu mövzular faktiki olaraq mediasiyanın universal əsaslarını təşkil edir və nəticə etibarilə hətta müştərək mediasiya üsullarından istifadə edildiyi və cəlb olunan mediatorların müxtəlif dövlətlərdə təlim aldığı hallarda belə, mediasiya haqlı olaraq transsərhəd mübahisələrin həlli vasitəsi kimi qəbul edilir.

Bir tərəfdən etiraf edilir ki, qüvvədə olan “Proqram”ın məzmunu “Mediatorlar üçün vəsait” vasitəsilə dəstəklənən və CEPEJ-in proqramına və mediasiya üzrə baza səviyyəli beynəlxalq təlim proqramına tam uyğun gələn mövzuları əhatə edir. Digər tərəfdən isə, yuxarıda qeyd olunan "Rəhbər prinsiplər"də vurğulanır ki, təlim xidməti göstərənlər "kursa özlərinin sosial, mədəni və hüquqi kontekstindən irəli gələn tələbatlara, eləcə də kursun ruhuna uyğun məzmunu daxil etməkdə sərbəstdirlər". Bununla belə, Azərbaycanın mediasiya qanunvericiliyi ilə bağlı fəsil istisna olmaqla, sözügedən Proqramda qeyd edilənlər əsasında onun məzmununun həmin aspektləri əhatə etdiyi qənaətinə gəlmək olmur, çünki onun məzmununda həmin aspektləri müəyyənləşdirmək mümkün deyil. Buna görə də təklif olunur ki, bu aspekt milli məsləhətçilərlə birlikdə yeni vəsaitin və təlim materiallarının hazırlanması prosesində nəzərdən keçirilsin.

Bundan əlavə, proqramların hazırlanması üzrə ekspertin baza səviyyəli mediasiya təlimi proqramının tərtib edilməsində, eləcə də vəsaitin hazırlanmasında iştirak etməsi ciddi surətdə tövsiyə olunur.

Alternativ variant olaraq, ən azı proqramların hazırlanmasında istifadə edilə bilən təlimat aləti, məsələn, ADDIE modeli bu məqsəd üçün rəhbər tutula biləcək vasitə kimi istifadə edilə bilər.




| ADDIE modeli | |
|---|---|
| **1. Təhlil etmə** | - Problemin müəyyən edilməsi<br>- Təlim tələbatlarının təhlili<br>- Ən yüksək səviyyəli öyrənmə hədəfinin müəyyən edilməsi<br>- Hədəf auditoriyasının müəyyənləşdirilməsi<br>- Maraqlı tərəflərin tələbatlarının müəyyən edilməsi<br>- Tələb olunan resursların sxeminin tərtibi |
| **2. Planlaşdırma** | - Öyrənmənin məqsədləri<br>- Maraqlı tərəflərlə razılaşdırma<br>- Qiymətləndirmə metodlarının planlaşdırılması<br>- Öyrənmə prosesinə dəstəkverici müdaxilələrin ümumi konturlarının hazırlanması<br>- Kommunikasiya strategiyasının hazırlanması<br>- Öyrənmə prosesinə dəstəkverici müdaxilələrin yüksək səviyyəli sxeminin tərtibi |
| **3. Hazırlama** | - Tədris strategiyalarının, vasitələrinin və metodlarının müəyyənləşdirilməsi<br>- Qiymətləndirmə alətlərinin hazırlanması və qiymətləndirilməsi<br>- Kommunikasiya strategiyasının hazırlanması<br>- Öyrənmə texnologiyalarının tətbiqi<br>- Öyrənmə məhsulunun hazırlanması<br>- Təqdim etmə metodunun müəyyənləşdirilməsi<br>- Keyfiyyətin qiymətləndirilməsi |
| **4. Reallaşdırma** | - Kommunikasiya planının həyata keçirilməsi<br>- Fiziki mühitdə dəyişikliklər<br>- Təlimin keçirilməsi və təlimdə iştirak<br>- Formal qiymətləndirmənin aparılması<br>- Yanakı proqramlarda iştirak |
| **5. Qiymətləndirmə** | - Qiymətləndirmə<br>- Davamlı öyrənmə<br>- Hər bir mərhələnin ayrılmaz tərkib hissəsi<br>- Yerinə yetirilmiş işin qiymətləndirilməsi<br>- Təkmilləşdirilməli məqamların təklif edilməsi |

Mənbə: İnsan Resurslarının İnkişafı Akademiyası (AIRH) – sxemi burada tapmaq olar: https://www.aihr.com/blog/addie-model/.

ADDIE modeli beş mərhələdən ibarətdir: *Təhlil etmə, planlaşdırma, hazırlama, reallaşdırma və qiymətləndirmə*. Onu qısaca aşağıdakı kimi təsvir etmək olar:

*Təhlil etmə* mərhələsində proses təlim tələbatlarını müəyyən etməyə, öyrənmə məqsədlərini təhlil etməyə və müəyyənləşdirməyə və bu qənaətlər əsasında təlimi əsaslandırmağa kömək edir. “Təlim nəticəsində iştirakçılar nəyi bilməlidirlər?”, “iştirakçıların bilik səviyyələri, bacarıqları və davranışları baxımından arzu olunan təlim nəticələri hansılardır?” və “hansı növ öyrənmə yanaşmasına üstünlük verilir?” kimi sualları bu mərhələdə müzakirə etmək və onlara cavab vermək lazımdır.

Təhlil etmə mərhələsində toplanmış məlumatlar *planlaşdırma* mərhələsində öyrənmə planının tərtibində istifadə edilir.

*Hazırlama* mərhələsində təlim kursunun prototipi və materialları hazırlanır və nəzərdən keçirilir.

*Reallaşdırma* mərhələsində təlim proqramı və materialları iştirakçılarla paylaşılır. Kursun tədris proqramı, təlim nəticələri, təqdimat üsulu və test prosedurları bu mərhələdə əhatə olunur. Qiymətləndirməni asanlaşdırmaq üçün bu mərhələdə təlimin qiymətləndirilməsi formalarından istifadə edilə bilər.

*Qiymətləndirmə* mərhələsində iştirakçıların təlim proqramından nə dərəcədə məmnun qaldığı araşdırılır və təkmilləşdirilməli məqamlar müəyyən edilir.

Qeyd edilməlidir ki, tədris proqramının hazırlanması aşağıda təsvir olunan mediatorlar üçün bacarıqlar modeli ilə sıx qarşılıqlı əlaqəli şəkildə aparılmalıdır.

## 3. Bacarıqlar modeli

“Rəhbər prinsiplər”də təklif edilir ki, "təlim proqramına bacarıqlar modeli daxil edilməli və onlar kurs boyu istifadə edilməlidir ki, iştirakçılara hansı mediator bacarıqlarına yiyələnməli olduqları aydın olsun. (...) Müvafiq olaraq, təlim kursu effektiv mediatorun malik olmalı olduğu əsas bacarıqları aydın və qısa şəkildə müəyyən edən “bacarıqlar modelinə” malik olmalıdır. Bu model kursun məzmununa və bacarıq tələblərinə uyğun olmalıdır".

SIMI (Sinqapur Beynəlxalq Mediasiya İnstitutu) “Mediatorlar üçün bacarıqlar modeli” nümunəsini təqdim edib, o, aşağıda təsvir edilmiş üç əsas aspekti əhatə edir: “Mediasiya üzrə bilgilərə malik olma və proseslərin idarə edilməsi”, “Münasibətlərin idarə edilməsi” və “Mediasiya məzmununun idarə edilməsi”:




| SIMI: Mediatorlar üçün bacarıqlar modeli | | |
|---|---|---|
| **Mediatorlar üçün əsas bacarıqlar** | | |
| **Mediasiya üzrə bilgilərə malik olma və proseslərin idarə edilməsi** | **Münasibətlərin idarə edilməsi** | **Mediasiya məzmununun idarə edilməsi** |
| Mediasiyanın əsas dəyərləri / prinsipləri və etik qaydaları | Kommunikasiya (ünsiyyət) bacarıqları | Liderlik |
| Mediasiya prosesi / Mediasiyanın mərhələləri | Mədəniyyətlərə bələd olma | Danışıqlar aparma |
| Qanunvericilik və hüquqi baza | Emosiyaların idarə edilməsi | Problemləri həll etmə |
| Münaqişələrin idarə edilməsi | Neytrallıq | Barışıq sazişi |
| Mediasiyanın növləri | Qərəzsizlik | Vaxtın idarə olunması |
| İnformasiya və kommunikasiya texnologiyaları | Komanda tərkibində çalışma bacarığı | Sahəyə və predmetə aid bilgilərə malik olma |

Mənbə: SIMI – Sinqapur Beynəlxalq Mediasiya İnstitutu, sxemi burada tapmaq olar: https://www.simi.org.sg/What-We-Offer/Mediators/The-SIMI-Competency-Framework-for-Mediators

Bu hərtərəfli modelin məqsədi mediatorun fəaliyyətinin üç əsas aspektini birləşdirmək və təqdim etməkdir: bacarıqlar və davranışlar, etik normalar və yerinə yetirilməli proseslər (onlar barədə yuxarıda ətraflı bəhs edilib).

## 4. Təlim kursunun məzmunu və mediatorların bacarıqları (təklif)

Təlimin məzmunu və mediatorların bacarıqları ilə bağlı yuxarıda qeyd olunan məsələləri nəzərə alaraq, hər bir bacarıqla əlaqəli təlim kursunun aşağıdakı strukturu təklif olunur:

| **Giriş** | **Mövzular** | **Bacarıq** |
|---|---|---|
| | Təlimçilər üçün təlimatlar | |
| | Mənbələr | |
| **Məzmun** | | |
| **Modul 1** | Mediasiyanın əsas dəyərləri / prinsipləri və etik qaydaları<br>Mediatorun əsas atributları | Mediasiyanın əsas dəyərlərini və üstünlüklərini anlamaq və tətbiq etmək bacarığı.<br>Mediasiya ilə mübahisələrin alternativ həllinin digər formaları arasındakı fərqləri anlamaq bacarığı.<br>Mediasiya etikasını anlamaq bacarığı (tərəflərin özlərinin qərar verməsinə imkan vermək, qərəzsizlik, konfidensiallıq və s.).<br>Mediatorun kim olduğunu və mediatorla digər oxşar peşə sahibləri arasındakı fərqi anlamaq bacarığı. |
| **Modul 2** | Mübahisələrin ənənəvi həlli və mediasiya | Mübahisələrin arbitraj və məhkəmə prosesi kimi ənənəvi həlli vasitələri ilə mediasiya arasında fərqləri anlamaq bacarığı. |
| **Modul 3** | Münaqişə (konflikt) nəzəriyyəsi və münaqişələrin idarə edilməsi | Münaqişə dövrünü və münaqişələrin idarə edilməsi üsullarını, münaqişə (konflikt) ilə mübahisə arasındakı fərqi və mövqelər və maraqlar arasındakı fərqləri anlamaq bacarığı. |
| **Modul 4** | Mediasiyanın əsas prinsipləri və məqsədləri | Mediasiyanın əsas prinsiplərini (məsələn, könüllülük, konfidensiallıq, mediatorun qərəzsizliyi, prosesə tərəflərin nəzarəti, bərabərlik) anlamaq bacarığı. |
| **Modul 5** | Mediasiyanın üslubları / növləri | Mediasiyanın müxtəlif üslublarını (evaluativ (qiymətləndirici), fasilitativ (asanlaşdırıcı), transformativ (dəyişdirici) mediasiya) anlamaq bacarığı.<br>Məhkəmələr tərəfindən idarə edilən mediasiya modelini və mediasiyadan imtina modelini (ilkin mediasiya sessiyası məcburi olmaqla) anlamaq bacarığı. |
| **Modul 6** | Mediasiyanın məqsədəuyğunluğunun qiymətləndirilməsi | Konkret işdə mediasiyanın məqsədəuyğunluğunu anlamaq və qiymətləndirmək bacarığı. |
| **Modul 7** | Mediasiya prosesi / Mediasiyanın mərhələləri | Mediasiyanın 5 mərhələsini anlamaq və idarə etmək bacarığı: hazırlıq, açılış, tədqiq etmə, danışıqlar və bağlanış. |

| | | |
|---|---|---|
| **Modul 8** | Münasibətlərin idarə edilməsi / Praktik bacarıqlar | Aktiv dinləmə, fikri başqa formada və ya başqa sözlərlə ifadə etmə və empatiya (şəfqət) kimi ünsiyyət bacarıqlarını anlamaq bacarığı.<br>Ünsiyyəti asanlaşdırmaq bacarığı.<br>Təhlükəsiz və güvənli mühit yaratmaq bacarığı.<br>Tərəflərlə ədalətli rəftar etməyin və onlara bərabər imkanlar yaratmağın vacibliyini anlamaq və nümayiş etdirmək bacarığı. |
| **Modul 9(1)** | Danışıqlar aparma | Danışıqların aparılması üzrə Harvard prinsiplərini və üsullarını anlamaq bacarığı.<br>BATNA [*Best Alternative to a Negotiated Agreement* – danışıqlar uğursuz nəticələnəcyi təqdirdə ən yaxşı alternativ variant] və WATNA [*Worst Alternative to a Negotiated Agreement* – danışıqlar uğursuz nəticələnəcəyi təqdirdə ən pis alternativ variant] təhlillərini anlamaq bacarığı. |
| **Modul 9(2)** | Problemləri həll etmə | Problemləri, maraqları müəyyən etmək və gündəliyi formalaşdırmaq bacarığı.<br>Variantları yaratmaq və reallıq testindən keçirmək üçün açıq tipli suallardan istifadə etməklə problemin həllində və qərarların qəbulunda tərəflərə kömək etmək bacarığı. |
| **Modul 10** | Qanunvericilik və hüquqi baza | Mediasiyaya dair hüquqi bazanı anlamaq bacarığı. |
| **Modul 11** | Məsafədən (distant) mediasiya | Distant formada keçirilən mediasiya sessiyalarında texnologiyalardan istifadəni anlamaq bacarığı. |
| **Modul 12** | Mediasiyada tərəflərin, onların vəkilinin və digər iştirakçıların rolları | Mediasiyada tərəflərin, onların vəkilinin və digər iştirakçıların rollarını anlamaq bacarığı. |
| **Modul 13** | Mediasiyada mediatorlar, hakimlər, vəkillər, mediasiya istifadəçiləri və digər maraqlı tərəflər arasında qarşılıqlı əlaqə | Bu və ya digər hallarda, o cümlədən iş məhkəmə tərəfindən mediasiyaya göndərildiyi və vəkillərin müştərilərinə məsləhətlər verdiyi və onları mediasiyada müşayiət etdiyi hallarda mediasiya prosesində müxtəlif maraqlı tərəflərin rolunu anlamaq bacarığı. |
| **Modul 14** | Mülki, əmək, ailə, cinayət və inzibati hüquqa aid işlərdə mediasiyanın əsas xüsusiyyətləri və fərqləri | Müxtəlif növ münaqişələrdə mediasiyanın mövcud olan əsas fərqlərini və onların nəticələrini anlamaq bacarığı. |
| **Modul 15** | Mülki, əmək, ailə, cinayət və inzibati hüquqa aid işlərdə ixtisaslaşdırılmış mediasiya təliminin xüsusiyyətləri | Mülki, əmək, ailə, cinayət və inzibati hüquqa və sairəyə aid mübahisələrin müxtəlif növləri üzrə ixtisaslaşdırılmış mediasiya təlimlərinin zəruriliyini anlamaq bacarığı. |

**Mənbə:** SIMI Mediatorlar üçün bacarıqlar modeli, https://www.simi.org.sg/What-We-Offer/Mediators/The-SIMI-Competency-Framework-for-Mediators (kontekstə uyğunlaşdırılıb)

Digər amillər, məsələn, təlim kursunun müddəti barədə qərar və ya milli ekspertlər tərəfindən təqdim olunan və onların təcrübəsinə əsaslanan digər müvafiq aspektlər nəzərə alınaraq, bəzi modullar,

məsələn, 12-15-ci modullar təlim kursuna daxil edilməyə bilər. Məsləhətçilər qeyd etmək istərdilər ki, təlimin praktik komponentinə, yəni interaktiv fəaliyyətlərə, praktik çalışmalara və rol oyunlarına üstünlük verilməlidir.

## 5. Kursun müddəti

“Rəhbər prinsiplər”də təklif olunduğu kimi, “müvafiq metodologiyalardan istifadə edilməklə kursun lazımi məzmunu adekvat şəkildə əhatə etməsi üçün kursun dərslərində xeyli tədris saatı nəzərdə tutulmalı və onların müddəti 40 saatdan az olmamalıdır, belə ki, bu təlimlər insanlara mediator bacarıqlarını yalnız baza səviyyəsində öyrətmək məqsədi daşıyır...". Bununla belə, “Rəhbər prinsiplər”də qeyd edildiyi kimi, təlim saatlarının 40-dan yuxarı olması arzuolunandır.

Məlumdur ki, hazırda Azərbaycanda baza səviyyəli təlim kursunun müddəti 48 saatdır. Bununla belə, ehtiyacları daha yaxşı başa düşmək və minimum müddət tələbləri ilə öyrənmə tələblərini uzlaşdıran real təklif irəli sürmək üçün bu məsələ praktik təlimçilərlə müzakirə edilməlidir.

## 6. Tədris prosesinə münasibətdə ümumi yanaşma

“Rəhbər prinsiplər”də qeyd edildiyi kimi, təlim kurslarının məqsədi iştirakçıların mediasiya fəaliyyətinə hazırlanmasıdır, ona görə də onlar “müştərək, interaktiv olmalı və öyrənənlərə yönəldilməlidir”. Buna görə təklif olunur ki, “müxtəlif tədris metodologiyalarından, o cümlədən mühazirə, videolar, interaktiv tapşırıqlar, fərdi iş, qrup müzakirəsi, cütlük halında söhbət və rol oyunlarından istifadə edilsin”. Bundan əlavə, “Rəhbər prinsiplər”də tövsiyə edilir ki, vaxtın yalnız təqribən 10%-i i) mühazirə/bilik vermə və təqdimata, qalan vaxt isə, müvafiq olaraq, 40 % və 50 % nisbəti ilə ii) tapşırıq və müzakirələrə və iii) rol oyunlarına, təlimatlandırmaya və əks əlaqəyə (rəylərin təqdim edilməsinə) ayrılsın.

Əslində məsələyə bu cür yanaşma, xüsusilə də Azərbaycanda olduğu kimi, mediasiya üzrə təlim təşkilatı tərəfindən verilən ilkin təlim sertifikatının mediasiyanın öyrənilməsi ilə bağlı yeganə tədris tələbi olduğu hallarda, təlim xidməti göstərən subyektlər arasında hamılıqla qəbul edilir.

Bundan fərqli olaraq digər dövlətlərdə mediator olmaq üçün ilkin hazırlıq keçməklə yanaşı, namizədlər digər tələbləri də yerinə yetirməli, yəni ilkin praktik bacarıqlar nümayiş etdirməli və imtahandan keçməlidirlər.

## 7. İştirakçılar üçün materiallar

“Rəhbər prinsiplər"də təklif olunur ki, kursdan əvvəl iştirakçılara əhatəli materiallar paylansın, bunlara aşağıdakılar daxildir:

- Kursun tədris vəsaiti/iş dəftəri;
- Yardımçı materiallar, məsələn, rol oyunları üçün ümumi təlimat;
- Mediasiya qaydaları və prosedurları, müvafiq qanunvericilik;
- Akademik məqalələr və dərsliklər.

Bundan əlavə, iştirakçıları biliklərini inkişaf etdirməyə və tədqiqatlar aparmağa təşviq etmək işinə köməklik üçün kursun materiallarına biblioqrafiya (ədəbiyyat) daxil edilməlidir.

Aydın məsələdir ki, mediasiya üzrə ilkin təlim üçün vəsaitin və təlim materiallarının hazırlanması "Azərbaycanda mediasiyanın təşviqi" adlanan cari layihənin tərkib hissəsidir. Bu məsələ bu hesabat boyu müzakirə edilib və növbəti mərhələdə əsas fəaliyyət kimi qəbul edilir.

## 8. Rol oyunlarının təşkili

"Rəhbər prinsiplər"də deyilir ki, "rol oyunları iştirakçıların simulyasiya edilmiş mühitdə geniş çeşidli mediasiya bacarıqlarını tətbiq etmələri, həmçinin təlimatçı kimi fəaliyyət göstərən təcrübəli mediatorun rəy və təlimatlarından faydalanmaları üçün istifadə olunur". Faktiki olaraq, rol oyunları təlim prosesində mühüm əhəmiyyət daşıyır və iştirakçılara prosesin müxtəlif mərhələlərində mediasiya bacarıqlarını tətbiq etməyə imkan verir.

"Rəhbər prinsiplər"də aşağıdakı əsas aspektləri əhatə edən rol oyunlarının hazırlanmasına dair olduqca ətraflı təlimatlar təqdim edilir:

- Kursdakı ikitərəfli mediasiya üçün hər bir rol oyunu maksimum altı nəfərdən ibarət olmalıdır.
- Rol oyunlarında mediasiya müddətləri ən azı 45 dəqiqə olmalıdır.

Bundan əlavə, başa düşmək vacibdir ki, rol oyunları kursun ehtiyaclarına uyğun olmalıdır.

Yeni rol oyunlarını hazırlayarkən ssenarinin yığcamlığını saxlamaq və hekayəni inandırıcı etmək məsləhət görülür. Uşaqların hekayələrinə, ssenarilərinə və personajlarına istinadlar iştirakçıların marağını artırmaq üçün seçim variantı ola bilər. Rollar müxtəlif mənşəli, müxtəlif emosional/fiziki/iqtisadi/mədəni xarakterli və s. formada yaradılmalıdır. Rol oyununun reallığa yaxın olmasını təşviq etmək üçün oyunun hər bir iştirakçısına təqdim edilən detallar konfidensial saxlanılmalıdır.

Mənbə: http://learningdesigns.uow.edu.au/guides/info/G1/Downloads/TipsDesRolePlay.pdf (kontekstə uyğunlaşdırılıb)

## 9. Əks əlaqə (rəylərin təqdim edilməsi)

"Rəhbər prinsiplər"də mediasiya üzrə təlim kurslarında əks əlaqənin (rəylərin təqdim edilməsinin) tədris baxımından əhəmiyyəti vurğulanır və buna görə də qeyd edilir ki, "təlim proqramları iştirakçılar üçün əks əlaqə imkanlarını təmin etməlidir". Belə qəbul edilir ki, rəylər "bacarıqlar modeli"ndən istifadə edilməklə təqdim olunmalı və "effektiv əks əlaqənin təmin edilməsi üçün təlimçilərə təlim keçirilməlidir".

"Rəhbər prinsiplər"də rəylərin təqdim edilməsi üçün müxtəlif üsullar təklif edilir: "rol oyunu zamanı qrupun təlimatlandırılması", "rol oyunundan sonra fərdi əks əlaqə" və "iştirakçıların işinə dair yazılı rəy".

Rəylərin təqdim edilməsi (əks əlaqə) müəyyən rəhbər prinsiplərə uyğun olmalıdır, məsələn:

- Müsbət aspektlərdən başlamaq və nələrin yaxşı alındığını qeyd etmək.
- İştirakçıların fəaliyyətinin güclü və zəif tərəflərinə aid nümunələr gətirmək.
- Dəyişiklik edilməsi mümkün olan məqamlara diqqət yetirmək, təkmilləşdirmələrə dair təkliflər vermək.

Bu prosesi asanlaşdırmaq və meyarları uzlaşdırmaq məqsədilə həm iştirakçıların, həm də təlimçilərin rəylərini təqdim etməsinin asanlaşdırılması üçün nümunəvi formanın hazırlanması tövsiyə olunur.

## 10. Fəaliyyətin qiymətləndirilməsi və akkreditasiya

“Rəhbər prinsiplər”də qeyd edilir ki, “əgər kurs mübahisəni səriştəli şəkildə həll etmək üçün iştirakçının lazımi bacarıq və biliyə malik olmasını qiymətləndirmək, sertifikatlaşdırmaq və ya akkreditasiya etmək üçün nəzərdə tutulubsa, o zaman kurs iştirakçının mediator bacarıqlarının kursun bacarıqlar modelinə uyğun olaraq faktiki qiymətləndirilməsini özündə ehtiva etməlidir". Həmçinin orada qeyd edilir ki, nəzərə alınmalı olan iki fərqli aspekt vardır: namizədlərin praktik tapşırıqları və rol oyunlarını necə yerinə yetirməsi əsasında onların bacarıqlarının və mediasiya sahəsində biliklərinin qiymətləndirilməsi yazılı və ya şifahi test vasitəsilə, yaxud kursdan əvvəl və ya sonra verilən tapşırıqlar vasitəsilə həyata keçirilə bilər.

"Mediasiya haqqında" Qanuna əsasən, mediator statusu almaq istəyən fiziki şəxs mediatorların ilkin hazırlıq proqramı üzrə təlimi keçməli və mediasiya üzrə təlim keçən qurum tərəfindən verilmiş sertifikat almalıdır. Bununla belə, Qanunda namizədlərin qiymətləndirilməsi ilə bağlı təfərrüatlar təqdim edilmir, halbuki bu aspekt həlledici əhəmiyyətə malikdir və lazımi qaydada müzakirə edilməli və qiymətləndirilməlidir.

Bundan əlavə, gələcəkdə Ədliyyə Akademiyasından başqa mediasiya üzrə təlimi xidməti göstərən digər subyektlər də akkreditasiyadan keçərsə, nümunəvi təlim kursu proqramının və akkreditasiya sisteminin qəbul edilməsi yolu ilə təlim standartlarının uzlaşdırılması ciddi surətdə tövsiyə olunur.

## 11. Modul nümunəsi

Təlim vəsaitinin yazılması prosesində istifadə ediləcək modul nümunəsi aşağıda göstərilmişdir:

| |
|---|
| **Modul X**<br><br>**Məqsəd**<br><br>Bu modulun məqsədi ………………………….. ibarətdir.<br><br>**Təlim (öyrənmə) nəticələri: bu modulun sonunda iştirakçılar:**<br><br>1.<br><br>2.<br><br>**Tədris strategiyaları:** məsələn, mühazirələr, videolar, müzakirələr, təqdimat faylları, kağız materiallar, kartlar, qrup işi, qrupda çalışmalar və s.<br><br>**Materiallar:** məsələn, video, təqdimat (prezentasiya) faylı və s.<br><br>**Müddət:** x saat<br><br>**Fəaliyyətlər/Çalışmalar**<br><br>Fəaliyyət 1:<br><br>Fəaliyyət 2:<br><br>Və s. |

## 12. Tövsiyələr

| Mövzular | Tövsiyələr |
|---|---|
| Kursun məzmunu və bacarıqlar modeli | Kursun məzmununun tərtibi AŞ/CEPEJ alətlərinə uyğun olaraq bacarıqlar modelinin hazırlanması ilə birlikdə həyata keçirilməlidir. |
| Kursun müddəti | Kursun müddəti cari təlim ehtiyacları nəzərə alınmaqla təlim tələbatlarına uyğunlaşdırılmalıdır.<br>Bununla belə, praktik çalışmalara ayrılan vaxt təxminən 90% olmalıdır. |
| Tədris prosesinə münasibətdə ümumi yanaşma | Müxtəlif tədris metodologiyalarından istifadə edilməlidir.<br>Təlimçilərə yeni materialların hazırlanmasında və ya mövcud olanlardan istifadə edilməsində kömək etmək üçün təlim vəsaitinin tərtibi zamanı videoların, çalışmaların, rol oyunlarının nümunələri və s. nümunələr vəsaitə daxil edilməlidir. |
| İştirakçılar üçün materiallar | Əlavə materiallar da daxil olmaqla yeni mediasiya kursu vəsaiti hazırlanmalıdır.<br>AŞ/CEPEJ-in mediasiya alətləri bu materialların bir hissəsi olmalıdır. |
| Rol oyunlarının təşkili | Müəyyən sayda rol oyunları tərtib edilməli və rol oyunlarının tərtibinə və iştirakçıların qiymətləndirilməsinə dair təlimatlar hazırlanıb təlim vəsaitinə daxil edilməlidir. |
| Əks əlaqə (rəylərin təqdim edilməsi) | İştirakçıların və təlimçilərin rəylərini təqdim etmələrini asanlaşdırmaq üçün nümunəvi forma hazırlanmalıdır. |
| Fəaliyyətin qiymətləndirilməsi və akkreditasiya | Təlim və akkreditasiya tələblərini uzlaşdırmaq üçün Mediasiya Şurası ilə birlikdə fəaliyyətin qiymətləndirilməsinin və akkreditasiyanın nümunəvi modeli hazırlanmalıdır. |

## 13. Yol xəritəsi

